# Haqlı və güclü olan Azərbaycandır

## İstənilən təxribata, qərəzli münasibətə layiqli cavab veriləcək

**Vətən müharibəsindən sonra Azərbaycana qarşı artan təzyiqlərdə, qarayaxma kampaniyalarında bəzi dövlətlər, təşkilatlar xüsusilə seçilirlər. Belə dairələr xüsusilə ölkədə keçiriləcək beynəlxalq, mötəbər tədbirlər ərəfəsində daha da fəallaşırlar.**



Bu baxımdan son zamanlar Qərbin, ABŞ-nin Azərbaycan əleyhinə addımları təəccüb doğurmur. Bu təzyiq siyasətində isə ABŞ Dövlət Departamenti aparıcı rol oynayır. Qarşıdan gələn beynəlxalq konfrans ərəfəsində Azərbaycanın imicini zədələmək, eyni zamanda Cənubi Qafqazla bağlı məqsədlərini həyata keçirmək istəyənlər bu dövrdən yararlanmağa çalışırlar.

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin aparıcı məsləhətçisi, siyasi şərhçi Mətin Məmmədli bildirib ki, son zamanlar Qərb, xüsusilə ABŞ tərəfindən Azərbaycana qarşı təzyiqlərin artdığı müşahidə edilir. Onun fikrincə, bunlar təsadüfi deyil: "COP29 beynəlxalq tədbiri ərəfəsində müəyyən dövlətlər, dairələr bu dövrdən istifadə edərək ölkəmizə qarşı təzyiq göstərərək, nəticədə regionla bağlı hansısa cari məqsədlərinə nail ola biləcəklərini hesab edirlər. Yəni onların düşüncəsi bundan ibarətdir. COP29-la bərabər, ABŞ-də yaxınlaşan seçkilər dövrü də rəsmi Vaşinqtonun ölkəmizə qarşı təzyiqləri artırmasında böyük rol oynayır. Belə ki, Bayden Administrasiyası erməni diasporundan dəstək almaq üçün Azərbaycana qarşı təzyiqləri artırmaq siyasətini həyata keçirir. Düşünürlər ki, bu yolla Birləşmiş Ştatlarda güclü təsir imkanları olan erməni diasporunun səsini qazanacaqlar. Qeyd etdiyim kimi, COP29-un yaxınlaşması ilə bağlı məsələlər də mövcuddur, bəzi Qərb dövlətləri, ABŞ düşünürlər ki, bu dövrdən istifadə etməlidirlər", - deyə o əlavə edib.

O qeyd edib ki, bütün bunlarla bərabər, ABŞ-nin nəinki son zamanlarda regionda olan müəyyən geosiyasi maraqları, bütövlükdə İkinci Qarabağ müharibəsindən sonra Azərbaycanla ABŞ arasındakı ziddiyyətlərdə siyasi maraqları rol oynayır. Ancaq Azərbaycan hansısa dövlət tərəfindən təzyiqlərə, haqsız hücumlara məruz qalsa da, hər zaman qarşı tərəfə adekvat cavab verib. Eynilə bu dəfə də adekvat cavab verir.

Siyasi təhlilçi bildirib ki, ölkəmizlə diktə dili ilə danışmaq istəyənlər, nəhayət, anlamalıdırlar ki, bununla nəyəsə nail ola bilməzlər: "Azərbaycan həm haqlıdır, həm də güclüdür. Haqlı və güclü olan dövlətlə digər dövlətlər diktə və təzyiq dili ilə danışa və öz maraqlarını həyata keçirə bilməzlər".

***Ə.QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 13 oktyabr (№ 225).- S.5.